


پرويز يکاني زارع

## موعاصير آذربايجان شاعير لريند ن :

## عليرضا ذيحق

"عليرضا ذيحق " بيرشاعير و حئکايه يازان دير کي گونش ايلين 1338-ينده خوي شهرينده آنا دان اولور.

" ذيحق " آذربايجان نشرياتي نين تانينميش سيما لاريندان دير و " ده ده قورقود " آيليغينين 1359 -1361 ينجي ايل لرده باش يازيچي سي ايدي. هابئله " کيهان " گونده لي گي نين اؤزه ل " ادب و هنر " تحريرييه سينين آکتيو عوضوي ( 1364-1366 ايل لرده) ايدي و يوزدن آرتيق عينوان مقاله ، شعر، دستان و چئويرمه تورکجه و فارسجا يايبلان نشرييااتدا او جومله

دن : وارليق ، يول ، اولكر ، ارك ، انقلاب يولوندا ، مهد آزادي ( آدينه  آدلي اؤزه ل صحيفه لرينده / قاسم تركا ن ين باش يازارليغي ايله ) و ...چاپ اولوبدور.
اوچ توركجه كيتابين نشري ( آذربايجان گولوشو ، قاشقاي ائل ادبياتي ، غلام حيدر داستاني ( 1359 -1376ا ايللر آراسيندا) بو شاعيرو يازيچي نين ادبي چاليشما لاريندان ساييلير .
" زخم شيشه / شوشه ياراسي " عليرضا ذيحق ين  قيسا حئكايه لري نين ايلك توپلوسو اولاراق 1380- نجي ايل ده زوفا نشري طرفيندن يابيليب و " ايتگين اولدوز " آدلي توركجه يازديقي حئكايه لر مجموعه سي ده ياخين گله جك ده يابيلا جاقدير . شاعيرين شعر كيتابي كي " سون پاريلتي " آديندا دير هله بو گونه جان چاپ اولماييبدير .
اؤرنك اولاراق اونون بير شعريني بوردا گتيريره م :

سون پاريلتي

داغلار نه‌قدر هوندور اولسادا
اولابير گؤزل گرآيپارچارسي

يقين‌كي بيرگون أريېرگئده‌ر
زمانلا اودا قه‌ريير گئده ر

بورانلا كولك قيشين شاختاسي
بورانلي قيشين آرديجا ايلكياز

قارا اؤلكه ني بوروبه‌ر گئده‌ر
گلر قارلاري كورويير گئده‌ر

آسديم لاكسديم توتدوم دئيه‌نده
يوزلرجه گؤزل ايگيت ساچينا

بيرگون دونيادان مله‌ير گئده‌ر
فلك قار كولك أله‌ير گئده‌ر

جوشان سئل كيمي انسان همتي
آخان اولدوزون سون پاريلتي‌سي

ييخار ظولمتي سورويير گئده‌ر
سؤنر قلبيمدير  چورويير گئده‌ر

عليرضا ذيحق شعرده و يازي دا " آغ چايلي " آديني اينتيخاب ائديب دير و شفاهي خلق ادبياتيندا آپارديقي تدقيقات دا ها آرتيق ديققه ته لاييق دير.

Pərviz  Yekanizare

Muasir Azərbaycan Şairlərindən :   Əliriza Zihaq

Əliriza Zihaq bir şair və hekayə yazan dır ki gunəş ili 1338- ci  ilində xoy şəhrində  anadan olur.
Zihəq azərbaycan nəşriyyatının tanınmış simalarındandir və ə "Dədə Qorqud" ayliğının " 1979- 1981" - cı  illərdə baş yazıçısi ıdi. Habelə "Keyhan" gundə liginin ?zəl " Ədəb və hunər " təhririyyesinin aktiv uzvy idi və yuz dən artıq məqalə , şeir,dəstan və çevirmə turkcə və farsca yayilan nəşriyyatda o cumlədən: Varlıq , Yol , Ulkər,Ark , Inqilab Yolunda, Məhd Azadi( Adinə adli ?zəl səhifələrində -Qasım Turkan ın baş yazar liqilə ) və ...çap olubdur.
Uç turkə kitabın nəşri " Azərrbaycan Guluşu , Qaşqay el Ədəbiyyatı ,Qulamheydər Dastani" ( 1979- 1996 illər arasında) bu şair və yazıçının ədəbi çalışmalarından sayılir.
"Zəxme Şişe – Şuşə Yarası" Əliriza Zihəq in qısa hekayələrinin ilk toplusu olaraq  2000 –ci  ildə Zufa nəşri tərəfindən yayılib və " İtgin Ulduz"  adli turkcə hekayələr məcmuə sidə yaxın gələcəkdə yayılacaqdır.
?rnək olaraq onun bir şerini burda gətirirəm:

Son parıltı

Dağlar nə qədər hundur olsada
Yəqin ki bir gun əriyər gedər

Ola bir g?zəl gər ay parçasi
Zamanla o da qəriyər gedər

Boranla kulək qışın şaxtasi
Qara ?lkəni buruyər gedər
Boranlı  qışın ardıca ilk yaz
Gələr qarlari kuruyər gedər

Asdımla kəsdim tutdum diyəndə
Birgun dunyadan mələyər gedər
Yuzlərcə g?zəl igit saçına
Fələk qar kulək ələyər gedər

Coşan sel kimi insan himməti
Yixar zulməti suruyər gedər
Axan ulduzun son parıltısı
S?nər qəlbim dir çuruyər gedər

Əliriza Zihaq şeirdə və yazlda " Ağçaylı"  adını intixab edibdir və şəfahi xalq ədəbiyyatında apardıqı tədqiqatlar daha artiq diqqətə  layiqdir.

2000 - xoy

WWW. MARAL65.BLOGFA.COM

This document was created with Win2PDF available at http://www.daneprairie.com.
The unregistered version of Win2PDF is for evaluation or non-commercial use only.